

Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır

Qəzet 1921-ci ildən çıxır

# ŞƏRQ qapısı

Təsisçi: Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti

Sayı: 85 (21.746)

5 may 2017-ci il, cümə

Gündəlik ictimai-siyasi qəzet

www.serqqapisi.az

Qiyməti 20 qəpik


## Rəsmi xronika



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 4-də ISESCO-nun baş direktoru Əbdüləziz bin Osman əl-Tuveycrini qəbul edib.

Söhbət zamanı Azərbaycanın sivilizasiyalararası və dinlərarası dialoqa verdiyi töhfənin önəmi vurğulanıb, ölkəmizdə 2017-ci ilin "İslam Həmrəyliyi İli" elan edilməsinin və IV İslam Həmrəyliyi Oyunlarının Azərbaycanda keçirilməsinin müsəlman ölkələrinin bir-birinə daha da yaxınlaşması işinə xidmət etdiyi qeyd olunub.

Görüşdə, həmçinin Azərbaycan ilə ISESCO arasında uzun illər səmərəli və uğurlu əməkdaşlığın həyata keçirildiyi bildirilib, ISESCO-nun Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi ilə bağlı Azərbaycanın ədalətli mövqeyini müdafiə etməsi yüksək qiymətləndirilib, əməkdaşlığımızın bundan sonra daha da genişləndiriləcəyinə əminlik ifadə olunub.

* * *

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 4-də BMT-nin Sivilizasiyalar Alyansı üzrə ali nümayəndəsi Nassir Abdulaziz Al-Nasseri qəbul edib.

* * *

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 4-də NATO baş katibinin ictimai məsələlər üzrə müavini Tacan İldemi qəbul edib.

* * *

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 4-də ABŞ Etnik Anlaşma Fondunun prezidenti Mark Şnayeri qəbul edib.

## Muxtar respublikada aprel ayında 204 nəfər Yeni Azərbaycan Partiyası sırasına daxil olmuşdur

Bu il martın 16-da Yeni Azərbaycan Partiyası Naxçıvan Muxtar Respublika Təşkilatının Siyasi Şurasının iclası keçirilmiş, Yeni Azərbaycan Partiyası Naxçıvan Muxtar Respublika Təşkilatının 2016-cı ildəki fəaliyyəti və qarşıda duran vəzifələrlə bağlı məsələ müzakirə olunmuşdur. Siyasi Şuranın iclasında Yeni Azərbaycan Partiyası Naxçıvan Muxtar Respublika Təşkilatının Sədri fəaliyyətin təşkili ilə bağlı konkret tapşırıqlar vermiş, yeni istiqamətlər müəyyənləşdirmişdir.

Qarşıya qoyulan vəzifələrin icrası ilə əlaqədar olaraq Yeni Azərbaycan Partiyası Naxçıvan Muxtar Respublika Təşkilatı və onun rayon (şəhər) təşkilatlarında aprel ayı ərzində bir sıra işlər görülmüş, 5 şura, 8 idarə heyəti iclası, 17 müxtəlif tədbir keçirilmiş, kəndlərdə partiya fəalları ilə görüşlər təşkil olunmuşdur. Bu dövrdə gənclərlə işə xüsusi diqqət yetirilmiş, Yeni Azərbaycan Partiyası Naxçıvan Muxtar Respublika Təşkilatı Heydər Əliyev adına Gənclər Birliyi və rayon (şəhər) təşkilatları Gənclər Birliyinin xətti ilə 8 tədbir keçirilmişdir. Şəhər və rayon təşkilatları, eləcə də ərazi ilk partiya təşkilatları gənc və yaradıcı qüvvələrin partiya sıralarına cəlb edilməsinə diqqəti artırmış, qeyd olunan dövrdə 204 nəfər partiya sıralarına qəbul edilmişdir. Partiyaya yeni qəbul olunanlardan 185-i gənc, 110-u isə qadındır.

Qarşıya qoyulan vəzifələrin icrası Yeni Azərbaycan Partiyası Naxçıvan Muxtar Respublika Təşkilatı və onun rayon (şəhər) təşkilatları tərəfindən bundan sonra da diqqətdə saxlanılacaqdır.

**Yeni Azərbaycan Partiyası Naxçıvan Muxtar Respublika Təşkilatı**

## Ulu öndər Heydər Əliyevin anadan olmasının 94-cü ildönümünə həsr edilmiş tədbir keçirilib



*Yeni Azərbaycan Partiyası Kəngərli Rayon Təşkilatı Qıvraq qəsəbəsində ulu öndər Heydər Əliyevin anadan olmasının 94-cü ildönümünə həsr olunmuş "Əbədiyaşar lider" mövzusunda tədbir keçirmişdir.*

Təşkilatın sədri, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin deputatı Sevda Quliyeva tədbirdə çıxış edərək bildirmişdir ki, Azərbaycanın dövlətçilik tarixində ən şanlı və parlaq səhifələr ulu öndər Heydər Əliyevin respublikamıza rəhbərlik etdiyi illərə təsadüf edir. 1969-1982-ci illərdə ulu öndərin apardığı uğurlu islahatlar nəticəsində Azərbaycan keçmiş ittifaq respublikaları arasında birinci sıralarda yer alıb. Əslində, müstəqil Azərbaycanın indiki iqtisadi inkişafı, sosial tərəqqisi və ictimai-siyasi sabitliyin davamlılığı həmin illərdə ulu öndər tərəfindən müəyyən edilmiş kompleks islahatlar strategiyasının, düşünülmüş uzunmüddətli siyasi kursun davamıdır.

Qeyd olunmuşdur ki, 1993-cü ildə xalqa sədaqətlə rəhbərlik edən əsl liderin olmaması, dövlətçilik institutlarının səbatsızlığı ucbatından ölkə, sözün əsl mənasında, kortəbii axara düşmüşdü. Ulu öndərin dövlətçilik qətiyyəti və iradəsi nəticəsində qısa vaxtda bu vəziyyətə son qoyuldu, vətəndaş qarşıdurması aradan qaldırıldı, ictimai-siyasi sabitlik yaradıldı. Bundan sonra qarşıya qoyulan əsas məqsədlərdən biri xarici investorları ölkəyə cəlb edib iqtisadiyyatı dirçəltmək, yeni müəssisələr yaratmaq idi. Böyük öndər ölkənin iqtisadi inkişafını dövlətin əsas vəzifəsi elan etdi, 1994-cü ilin sentyabr ayında Azərbaycan və region üçün iqtisadi və geosiyasi əhəmiyyət kəsb edən "Əsrin müqaviləsi" imzalandı. Bununla Azərbaycanın həm iqtisadi, həm siyasi, həm də mədəni həyatında yeni dövr başlandı.

Diqqətə çatdırılıb ki, görkəmli dövlət xadimi Heydər Əliyevi xalqın ümummilli lideri zirvəsinə yüksəldən keyfiyyətlərdən başlıcası vətəninə qırılmaz tellərlə bağlı olması idi. Dahi şəxsiyyət bütün ömrünü xalqın rifahının yaxşılaşdırılmasına, Azərbaycanın beynəlxalq aləmdə tanınmasına, nüfuzunun artmasına sərf etdi. Güclü, yenilməz və qüdrətli bir dövlət qurdu.

Vurğulanmışdır ki, görkəmli dövlət xadiminin müəyyənləşdirdiyi inkişaf xətti hazırda ölkə başçısı cənab İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Azərbaycan güclü iqtisadiyyatı və beynəlxalq nüfuzu ilə artıq dünya dövlətləri sırasında layiqli yerini tutmuşdur. Ümummilli liderin ideyaları Naxçıvan Muxtar Respublikasını da hərtərəfli inkişafa qovuşdurmuşdur. Dahi şəxsiyyətin xalqımızın tərəqqisi naminə irəli sürdüyü inkişaf konsepsiyası, irimiqyaslı proqramlar muxtar respublikada uğurla həyata keçirilir.

Bütün bunlar bir daha göstərir ki, Heydər Əliyev yolunun alternativi yoxdur. Azərbaycan xalqının hələ neçə-neçə nəsli Heydər Əliyev ideyalarından, onun böyük dövlətçilik məktəbindən ölkəmizin inkişafı və rifahı naminə faydalanacaqdır.

Tədbirdə Yeni Azərbaycan Partiyası Kəngərli Rayon Təşkilatı İdarə Heyətinin üzvü İsmayıl Hüseynquliyev, Yeni Azərbaycan Partiyası Kəngərli Rayon Gənclər Birliyinin sədri Süleyman Süleymanov çıxış etmişlər.

Sonra Yeni Azərbaycan Partiyası sıralarına yeni qəbul olunmuş gənclərə üzvlük vəsiqələri verilmişdir. Tədbirin sonunda məktəblilər ulu öndərə həsr olunmuş şeirləri bədii qiraət etmiş, ümummilli liderin həyat və fəaliyyəti ilə bağlı videomaterial nümayiş olunmuşdur.

**Babək İSMAYILOV**

***Ulu öndər Heydər Əliyevin möhtəşəm ömür yolu və çoxşaxəli, misilsiz fəaliyyəti Vətənə və xalqa fədakar xidmətin ideal nümunəsi olduğu kimi, nəzəri irsi də neçə-neçə nəsillərin yolunu işıqlandırmağa qadir olan mükəmməl təlimdir.***

## "Ümummilli lider Heydər Əliyevin dövlətçilik təlimi günümüzdə" mövzusunda elmi-praktik konfrans



Bu fikirlər Naxçıvan şəhərindəki Heydər Əliyev Muzeyində "Ümummilli lider Heydər Əliyevin dövlətçilik təlimi günümüzdə" mövzusunda keçirilən elmi-praktik konfransda səsləndirilib.

Konfransda muzeyin direktoru Ramil Orucəliyev "Ümummilli lider Heydər Əliyev və Azərbaycanda multikultural dəyərlərin inkişafı" mövzusunda məruzə ilə çıxış edib.

Bildirilib ki, ulu öndərimizin fəaliyyətində və təlimində multikultural dəyərlərə münasibət, müxtəlif xalqların mədəniyyətinə, dini etiqadına ehtiramla yanaşmaq, Şərq və Qərb sivilizasiyalarının qarşılıqlı əlaqələrinə obyektiv baxış özünəməxsus yer tutur. ***"Azərbaycan əhalisinin çoxmilli tərkibi bizim sərvətimizdir, üstünlüyümüzdür"***, – deyən dahi rəhbər respublikamızda yaşayan hər bir xalqın, hər bir vətəndaşın hüquq və azadlıqlarının qorunması işinə də diqqət və qayğı göstərib. Məhz ümummilli liderimizin rəhbərliyi ilə hazırlanan və 1995-ci ildə qəbul edilən Azərbaycan Respublikası Konstitusiyasının 25-ci maddəsi ilə mənşəyindən, irqindən, dinindən və dilindən asılı olmayaraq, hər kəsin hüquq və azadlıqlarına hörmət təmin edilib.

"Ulu öndər Heydər Əliyev və milli-mənəvi dəyərlər" mövzusunda çıxış edən Naxçıvan Dövlət Universitetinin Ümumi tarix kafedrasının dosenti Ələkbər Cabbarov ümummilli lider Heydər Əliyevin Azərbaycanın mədəniyyəti və mənəvi həyatının inkişafındakı misilsiz xidmətlərindən bəhs edib.

Bildirilib ki, ulu öndər siyasi fəaliyyətin mənasını yalnız və yalnız Azərbaycanın tərəqqisini təmin etməkdə, xalqın mədəni, mənəvi və intellektual yüksəlişinə nail olmaqda görürdü. Milli dəyərlərimizi, gözəl adət-ənənələrimizi qoruyub inkişaf etdirmək, gənc nəslə sevdirmək, onlara sədaqət hissləri aşılamaq dahi rəhbərin ən böyük arzularından biri idi. Milli və mənəvi dəyərlərimizdən biri olan ana dilimizin nüfuzunu qaldırmaq, ona işləklik qazandırmaq məqsədilə ümummilli liderimiz hələ sovet dövründə Azərbaycan dilinin ölkəmizdə dövlət dili kimi rəsmiləşdirilməsinə nail oldu. Azərbaycan SSR-in 1978-ci il Konstitusiyasında Azərbaycan dilinin dövlət dili kimi qəbul edilməsi həmin dövr üçün mühüm hadisə idi.

"Naxçıvan" Universitetinin İdarəetmə fakültəsinin dekanı, tarix üzrə fəlsəfə doktoru Elbrus İsayev "Ümummilli lider Heydər Əliyev və Azərbaycanın xarici siyasət strategiyası" mövzusunda məruzəsində vurğulayıb ki, ölkəmizdə bütün sahələrdə olduğu kimi, xarici siyasətdə də uğurlar əldə edilməsində ulu öndərin misilsiz xidmətləri olub. Müstəqilliyimizin ilk illərində ölkəmizin parçalanmaq təhlükəsi ilə üz-üzə qaldığı bir vaxtda xalqın təkidli tələbi ilə 1993-cü ilin iyununda yenidən hakimiyyətə gələn ulu öndər dühası və dərin zəkası ilə respublikamızı ağır və böhranlı vəziyyətdən xilas edib. Bundan sonra Azərbaycanın xarici siyasət kursunda mövcud reallıqlar nəzərə alınaraq ölkəmizin milli mənafelərinin qorunmasına yönəlmiş əməli dəyişikliklər edilib. Bu dövrdən başlayaraq həyata keçirilən xarici siyasətimiz məhz ümummilli liderin adı və onun fəaliyyəti ilə sıx bağlıdır.

Qeyd olunub ki, əsası dahi şəxsiyyət tərəfindən qoyulan Azərbaycanın xarici siyasəti ölkənin milli təhlükəsizliyinin etibarlı təminatıdır. Bu siyasət hazırda Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilir.

Çıxışlardan sonra konfrans iştirakçıları "O, Heydər Əliyev idi" filminə baxıb, Heydər Əliyev Muzeyinin ekspozisiyası ilə tanış olublar.

**Tural AĞAYEV**

Azərbaycanın özü qədər əbədi

# Ümummilli lider Heydər Əliyev Azərbaycan dilinin inkişafına xüsusi diqqət yetirib

***Görkəmli dövlət xadimi Heydər Əliyev elə dahi şəxsiyyətdir ki, hələ sağlığında hər bir azərbaycanlının qəlbində daimi yaşamaq hüququ qazanmışdır. Şərəfli və mənalı ömrünün 40 ilə yaxın bir dövrünü respublikamıza rəhbərlikdə keçirən ulu öndər həyatımızın bütün sahələrinin yüksəlişinə nail olmuş, dövlətimizin gələcək inkişaf strategiyasını müəyyən etmişdir. Bu sahələr sırasında xalqımızın milli pasportu sayılan dilimizin layiq olduğu səviyyədə tanınmasında çox mühüm işlər görmüşdür.***

Qeyd etmək lazımdır ki, Azərbaycan dili çox qədim dövrlərdən formalaşmağa başlamış, xalqımızın ictimai həyatında böyük nüfuz qazanmış, zəngin inkişaf mərhələləri keçmişdir.

Azərbaycanda dil siyasətinin həyata keçirilməsinə Azərbaycan Xalq Cümhuriyyəti dövründən başlanılmışdır. 27 iyun 1918-ci il tarixdə qəbul edilmiş qərar Azərbaycan dilini dövlət dili elan edən ilk rəsmi sənəd kimi çox böyük tarixi rol oynamaqla yanaşı, Azərbaycan milli dil siyasətinin formalaşmasının, millətin mənafeyinə uyğun düzgün ideoloji mövqeyin əsasını qoymuşdur. Müəyyən dövrlərdə çox ciddi təzyiqlərə məruz qaldığından dövlət dili anlayışı Azərbaycanda ancaq müstəqillik dövründə real məzmun kəsb etməyə başlamışdır.

Görkəmli dövlət xadimi Heydər Əliyev Azərbaycanın rəhbəri kimi fəaliyyətə başladığı ilk illərdən Azərbaycan dilinin siyasi nüfuzunun yüksəlməsinə çalışmış, doğma dilimizə işləklik qazandırmaq, onun dövlət dili kimi yüksək statusa sahib olmasını təmin etmək üçün məqsədyönlü addımlar atmışdır. Dahi şəxsiyyət təşəbbüsü ilə Azərbaycan Respublikasının 1978-ci il Konstitusiyasında ilk dəfə dilimiz dövlət dili kimi rəsmiləşdirilmişdir. Bu, dövlətçilik tariximizdə dilimizin dövlət dili statusu sahəsində aparılan mübarizələrdə ulu öndər Heydər Əliyevin adı ilə bağlı ən möhtəşəm, böyük qələbələrin birincisi və ən vacibi idi. Çünki bu tarixə qədər dilimizin statusunun müəyyənləşməsinə bir neçə dəfə təşəbbüs göstərilsə də, onların hamısı uğursuzluqla nəticələnmişdi. Bildiyimiz kimi, dilin cəmiyyətdəki mövqeyi dövlətçiliklə birbaşa bağlıdır. Çünki dövlətçilik dilin dayağıdır. Dilin müstəqil inkişafı, zənginləşməsi və nüfuzu bilavasitə dövlətçiliklə bağlı olduğu üçün dil dövlətçiliyin əsas aparıcı atributlarından biri sayılır. Ona görə də ana dilimizin dövlət dili statusu Konstitusiyada qanuniləşdirildikdən sonra dövlət idarəçiliyinin müxtəlif sferalarında, sosial-iqtisadi həyatda dilimizin fəaliyyət dairəsi ulu öndərin qayğısı sayəsində genişlənməyə başlamışdır.

Ümummilli liderimizin 1993-cü ildə hakimiyyətə qayıdışı ilə özünü Azərbaycan Xalq Cümhuriyyətinin varisi elan edən Azərbaycan Respublikası dil siyasəti sahəsində də bu varisliyi qoruyub saxladı.

***"Hər bir xalqın milliliyini, mənəvi dəyərlərini yaşadan, inkişaf etdirən onun dilidir",*** – deyən ümummilli liderimiz Azərbaycana rəhbərlik etməyə başladığı andan mədəniyyətimizə və mənəviyyatımıza dərindən bağlılığını dönə-dönə sübut etmiş, öz siyasi təcrübəsi, yüksək intellekti ilə milli dilin inkişafı istiqamətində məqsədyönlü iş aparmış və bu siyasəti bütün çətinliklərə baxmayaraq, dönmədən həyata keçirmişdir.

Ulu öndər Heydər Əliyevin dahiyanə fəaliyyəti sayəsində müstəqillik dövrü dilimizin inkişafı üçün yeni perspektiv imkanlar və üfüqlər açmışdır. 1995-2000-ci illərdə Heydər Əliyev Azərbaycan dilinin Azərbaycan Respublikasının dövlət dilinə yalnız sözdə deyil, əməldə çevrilməsi üçün bütün enerjisi, siyasi iradəsi ilə çalışmış, bu dilin böyük Azərbaycanın ünsiyyət vasitəsi, milli və mənəvi dəyəri olması uğrunda mübarizə aparmış və Azərbaycan dilinə sevgini Azərbaycançılıq ideologiyasının əsas tərkib hissəsi kimi təsbit etmişdir.



Müstəqil Azərbaycan dövlətinin dil siyasətinin müəyyənləşməsində görkəmli dövlət xadimi Heydər Əliyevin "Dövlət dilinin tətbiqi işinin təkmilləşdirilməsi haqqında" 18 iyun 2001-ci il tarixli Fərmanı böyük rol oynamışdır. Bu fərmanla Azərbaycan dövlətinin müstəqillik təcrübəsinə əsaslanan böyük siyasi xadim dövlət dilinin tətbiqi sahəsində görülməli olan zəruri işlərin proqramını vermişdir. Ulu öndər Azərbaycan xalqının ana dilinin – dövlət dilinin inkişafı, tətbiqi işinin təkmilləşdirilməsi üçün çox mühüm tədbirlərin həyata keçirilməsini – Azərbaycan Respublikasının dövlət dili haqqında qanunun hazırlanmasını, dövlət dilinin və latın qrafikasının tətbiqi işinin yaxşılaşdırılması ilə bağlı kompleks planlar hazırlanıb həyata keçirilməsini, latın qrafikası ilə çap olunacaq elmi, bədii, tədris və sair ədəbiyyatın siyahısının hazırlanmasını zəruri saymışdır. Ulu öndər bu fərmanın tətbiqini sürətləndirmək məqsədilə 2001-ci il avqustun 9-da "Azərbaycan əlifbası və Azərbaycan dili gününün təsis edilməsi haqqında" daha möhtəşəm bir Fərman imzalamışdır. Bu fərmana əsasən hər il 1 avqust tarixi dil bayramı kimi qeyd olunmaqdadır. Azərbaycan əlifbası və Azərbaycan dili gününün təsis edilməsi ümummilli lider Heydər Əliyevin 1969-cu ildən başladığı milli dil siyasətinin, 1993-cü ildən etibarən həyata keçirdiyi milli dövlətçilik siyasətinin davamı və qanunauyğun nəticəsidir.

Görkəmli dövlət xadimi Heydər Əliyevin uzaqgörən siyasəti nəticəsində hələ 1937-ci ildə repressiyaya uğradılmış latın qrafikalı Azərbaycan əlifbasına yeni həyat verilmişdir. Bu tarixi hadisə ilə Azərbaycan Türk dünyasında Türkiyədən sonra latın qrafikasına keçən ilk postsovet respublika olmuşdur.

Ümummilli liderin milli dil siyasəti onun layiqli varisi ölkə Prezidenti cənab İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Belə ki, 12 yanvar 2004-cü ildə Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin imzaladığı "Azərbaycan dilində latın qrafikası ilə kütləvi nəşrlərin həyata keçirilməsi haqqında" Sərəncam milli dil siyasətinin reallaşdırılması baxımından çox mühüm əhəmiyyət kəsb edir. Eləcə də dövlət başçısının 2007-ci il 30 dekabr tarixində imzaladığı "Dünya ədəbiyyatının görkəmli nümayəndələrinin Azərbaycan dilində nəşri nəzərdə tutulan əsərlərinin siyahısının təsdiq edilməsi haqqında" Sərəncamı ana dilinin həyatımızın bütün sahələrində tam və müfəssəl tətbiqini gerçəkləşdirmişdir.

Prezident İlham Əliyevin həmin sərəncamları onun dövlətçilik fəaliyyətində milli mənəviyyatın təməllərinə nə qədər qayğıkeş yanaşmasının açıq göstəricisidir. Prezidentin latın qrafikalı əlifbada bədii, elmi ədəbiyyatların nəşrinə başlamaq qərarı mədəni, ideoloji məzmunu ilə yanaşı, daha geniş məsələləri də özündə ehtiva edir. Latın qrafikalı əlifba ilə kütləvi nəşrlərin həyata keçirilməsi Azərbaycan dövlətinin mədəniyyət, mənəviyyat sahəsindəki müasir siyasətini ifadə edir və möhkəm əsaslara malikdir.

Latın qrafikalı əlifba ilə kütləvi nəşrlərin həyata keçirilməsi siyasəti məzmunu, forması, texnologiyası etibarilə böyük mənəvi hadisədir. Bu tədbir həm yeni qrafikanın ölkə əhalisi arasında sürətlə yayılmasına şərait yaratmış, həm də milli ideologiyanı təbliğ edən ədəbiictimai və mədəni-siyasi ədəbiyyatın müasir gəncliyin milli ruhda tərbiyəsinə xidmət göstərir. Burada bir faktı da qeyd etmək yerinə düşər ki, ulu öndərin fərmanı ilə yeni latın qrafikasının tətbiqindən sonrakı dövrdə ölkə Prezidentinin bilavasitə rəhbərliyi altında Azərbaycan dilinin orfoqrafiya qaydaları yenidən işlənmiş və yeni variant Nazirlər Kabineti tərəfindən təsdiq edilmişdir.

Dilimizin qorunması, dövlət dilinin əhatə dairəsinin genişləndirilməsi, beynəlxalq arenaya çıxışı və digər sahələrdə xeyli iş görülmüşdür. Bütün bunlarla yanaşı, son illər dünya miqyasında gedən qloballaşma prosesləri ilə əlaqədar milli dəyərlər, o cümlədən milli varlığımızın əsas vasitəsi olan dilimizin istifadəsi istiqamətində bir sıra mühüm tədbirlərin həyata keçirilməsinə zəruri ehtiyac yaranmışdır. Məhz buna görə ölkə Prezidenti İlham Əliyev 9 aprel 2013-cü il tarixdə dil problemlərinin həlli, eləcə də dövlətçiliyimizin rəmzlərindən olan ana dilinin istifadəsinə və tədqiqinə dövlət qayğısının artırılması, ölkəmizdə dilçilik elmi sahəsində vəziyyətin əsaslı surətdə yaxşılaşdırılması məqsədilə "Azərbaycan dilinin qloballaşma şəraitində zamanın tələblərinə uyğun istifadəsinə və ölkədə dilçiliyin inkişafına dair Dövlət Proqramı"nı təsdiq etmişdir. Dövlət proqramının icra müddəti 2014-2020-ci illəri əhatə edir.

Azərbaycan dilinin qloballaşma şəraitində zamanın tələblərinə uyğun istifadəsinə və ölkədə dilçiliyin inkişafına dair dövlət proqramında nəzərdə tutulan zəruri tədbirlərin bir qismi artıq həyata keçirilmişdir. Belə ki, dövlət proqramı işığında hazırda Azərbaycan dilində termin yaradıcılığı sahəsində işlərin tənzimlənməsi və koordinasiya edilməsi, eləcə də müxtəlif sahələrdə tərcümə işinin mərkəzləşdirilmiş qaydada və məqsədyönlü şəkildə aparılması üçün Azərbaycan Respublikasının Nazirlər Kabineti yanında Terminologiya Komitəsi və Tərcümə Mərkəzi kimi dövlət orqanları yaradılmışdır.

Bu dövlət proqramında Azərbaycan dili ilə yanaşı, Azərbaycan dilçiliyinin, tərcümə fəaliyyətinin, terminologiya istiqamətinin də inkişafına diqqət verilir və məsələ kompleks şəkildə öz həllini tapır.

Bu mühüm dövlət sənədində ana dilinin saflığının qorunması, ədəbi dilin inkişafı ilə yanaşı, Azərbaycan dilçilik elminin vəziyyəti haqqında məsələ qaldırılır, dilçi alimlərin qarşısında xüsusi tələblər qoyulur və bununla da, bu elm sahəsinin inkişafı üçün böyük bir perspektiv açılmış olur.

Dilimizə hörmət və ehtiram Naxçıvan Muxtar Respublikasında da yüksək səviyyədə özünü göstərir. Fərəh hissi ilə qeyd etmək lazımdır ki, muxtar respublikamız Azərbaycanda ilk dəfə olaraq "Ana dili" abidəsi ucaldılmış regionlardan biridir. Ulu öndərimizin təsis etdiyi Azərbaycan Əlifbası və Ana Dili Günü hər il diyarımızın paytaxtındakı "Ana dili" abidəsi önündə qeyd edilir.

Nəzərə alsaq ki, xidmət sahələri və istehsal müəssisələri insanların ən çox üz tutduqları ünvanlardır, onda bu sahələrdə istifadə olunan reklam lövhələrindəki yazıların ana dilimizdə yazılması vacib şərtdir. Muxtar respublikamızda bütün reklam və elan lövhələrindəki yazıların ədəbi dilimizin bütün normalarına uyğun şəkildə əks olunması biz dilçi alimləri sevindirən hadisədir. Belə ki, regionda istehsal və xidmət sahələrində istifadə olunan reklamlarda Azərbaycan dilinin normaları gözlənilməkdədir. Və bu iş, yəni reklam lövhələrinin yazılışının və istifadəsinin qanunvericilikdə nəzərdə tutulmuş formada həyata keçirilməsi nümunədir.

Xalqımızın dövlət müstəqilliyi əldə etməsindən artıq 26 il ötür. Bu müddət ərzində ölkəmizdə bütün sahələrdə olduğu kimi, sosial-siyasi sahədə də xeyli nailiyyətlər qazanılmışdır. Dilimizin dövlət dili kimi müstəqil inkişafı bu nailiyyətlərin bariz nümunələrindən biri, görkəmli dövlət xadimi Heydər Əliyevin dil siyasətinin ölkəmizdə uğurla həyata keçirilməsinin ifadəsidir.

*Məqaləni ümummilli liderimiz Heydər Əliyevin dilimizin inkişafı haqqındakı aşağıdakı fikri ilə bitirmək istəyirəm:* ***"...Biz dünyada öz dilimizlə tək yaşayırıq. Bizim birinci nailiyyətimiz o olmalıdır ki, öz dilimizi Azərbaycanda hakim dil etməliyik. Hər bir azərbaycanlı öz ana dilini bilməlidir, bu dildə səlis danışmalıdır və bu dili sevməlidir... Azərbaycan dilini daha da zənginləşdirmək, daha da inkişaf etdirmək sizin ən müqəddəs borcunuzdur".***

**Əbülfəz QULİYEV**
***AMEA Naxçıvan Bölməsi İncəsənət, Dil və Ədəbiyyat İnstitutunun direktoru, AMEA-nın müxbir üzvü***

# "Ulu öndər Heydər Əliyevin həyat və fəaliyyətinin Naxçıvan dövrü" mövzusunda açıq dərs keçilib

***Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Naxçıvanşünaslıq Mərkəzində "Ulu öndər Heydər Əliyevin həyat və fəaliyyətinin Naxçıvan dövrü" mövzusunda açıq dərs keçilib. Açıq dərsdə Naxçıvan Dövlət və "Naxçıvan" universitetlərinin, həmçinin Naxçıvan Dövlət Texniki Kollecinin tələbələri iştirak edib.***

Tədbirdə mərkəzin elmi katibi Emin Məmmədov məruzə edərək Naxçıvan Muxtar Respublikasının inkişafının və yüksəlişinin ulu öndər Heydər Əliyevin adı ilə bağlı olduğunu vurğulayıb.



Bildirilib ki, xalqımızın böyük oğlu Heydər Əliyevin zəngin və mənalı həyatında Naxçıvanda siyasi fəaliyyət göstərdiyi dövr mühüm əhəmiyyətə malikdir. Bu dövrdə dahi rəhbər çoxcəhətli yorulmaz fəaliyyəti ilə Azərbaycan dövlətçiliyinin Naxçıvan mərhələsini yaradıb. Ulu öndərin 1990-cı il iyulun 22-də Naxçıvana möhtəşəm qayıdışı, 1991-ci il sentyabrın 3-də xalqın təkidli tələbi və istəyi ilə muxtar respublikanın rəhbəri seçilərək son dərəcə ağır vəziyyətdə olan bu ulu diyarı qoruması, əsl nicat yoluna çıxararaq hərtərəfli yüksəlişə qovuşdurması böyük əhəmiyyət daşımaqla, bütövlükdə, ölkəmiz üçün mühüm bir hadisəyə çevrilib.

Qeyd edilib ki, 1990-cı il noyabrın 17-də keçirilən Naxçıvan Muxtar Respublikası Ali Məclisinin ilk sessiyası ulu öndərimiz Heydər Əliyevin sədrliyi ilə fəaliyyətə başlayıb. Həmin sessiyada təkcə Naxçıvan üçün deyil, ümumən, Azərbaycan üçün son dərəcə böyük əhəmiyyətə malik taleyüklü qərarlar qəbul olunub.

Vurğulanıb ki, ötən əsrin 90-cı illərində Naxçıvanın işğal olunmaqdan xilas edilməsi, ölkəmizin ərazi bütövlüyünün qorunub saxlanılması xalqımızın böyük oğlu Heydər Əliyevin tarixi xidmətlərindən biridir. Müstəqil Azərbaycanın taleyində xüsusi əhəmiyyətə malik olan Yeni Azərbaycan Partiyasının da dahi rəhbər Heydər Əliyev tərəfindən Naxçıvanda yaradılması ölkəmizin milli istiqlalında böyük öndərin həyatı və fəaliyyətinin Naxçıvan dövrünün müstəsna dərəcədə əhəmiyyətli olduğunu bariz şəkildə göstərməkdədir.

Sonra tələbələri maraqlandıran suallar cavablandırılıb.

**✍ Nail ƏSGƏROV**



# Xalqımızın istedad və bacarığını göstərən xalça sənəti milli sərvətimizdir

***Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin “Azərbaycan Respublikasında “Xalçaçı günü” peşə bayramının təsis edilməsi haqqında” 2016-cı il 25 noyabr tarixli Sərəncamına əsasən mayın 5-i ölkəmizdə “Xalçaçı günü” peşə bayramı kimi qeyd ediləcəkdir.***

Azərbaycanda xalça toxuculuğu tətbiqi sənət növünün ən qədim və unikal sahələrindən biridir. Vətənimizin ərazisində aparılan arxeoloji qazıntılar və yazılı mənbələrə görə, Azərbaycanda xalça toxuculuğu Tunc dövründə, yəni 5 min il bundan əvvəl meydana gəlmişdir. Azərbaycan xalçası boyalarının tükənməz zənginliyi, naxışlarının təkrarolunmazlığı, yaradıcılıq təxəyyülünün gücü və yüksək sənətkarlığı ilə diqqəti cəlb etmişdir. Ölkəmizdə xalçaçılığın inkişafı haqqında Herodot, Klavdi Elian, Ksenofont və başqa qədim dünya tarixçiləri məlumat veriblər. “Kitabi-Dədə Qorqud” dastanlarında, Nizami, Xaqani və başqa şairlərimizin əsərlərində xalçalarımız tərənnüm edilir. Hazırda dünya muzeylərində saxlanan nadir Azərbaycan xalçaları vaxtilə Vətənimizə gələn səyyahlar, tacirlər və alimlər tərəfindən bu ölkələrə aparılmışdır. Azərbaycan xalçaları Avropada intibah dövrünün görkəmli rəssamlarının tablolarında da təsvir olunmuşdur. Bu gün Azərbaycan xalçaları dünyanın məşhur muzeylərində nümayiş etdirilir.

***“Hər bir xalqın mədəni irsi onun milli sərvəti, tarixi və bu günüdür”,*** – deyən Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyev ölkəmizə rəhbərlik etdiyi hər iki dövrdə mədəni irsimizin bu sahəsinin inkişafına və qorunmasına xüsusi diqqət və qayğı göstərmişdir. Bu illərdə ölkəmizdə xalçaçılığın inkişafı və təbliği üçün bir sıra mühüm tədbirlər həyata keçirilmiş, xalçaçı rəssamlara diqqət və qayğı göstərilmişdir. 1972-ci ildə xalça muzeyinin açılması ölkəmizdə bu sahəyə göstərilən diqqətin ifadəsi idi. 1983-cü ildə ulu öndər Moskvada SSRİ Nazirlər Soveti Sədrinin birinci müavini olduğu zaman Bakıda YUNESKO-nun Şərq Xalçaları üzrə Beynəlxalq Konfransının xətti ilə Azərbaycan xalçasının tanıdılması məqsədilə simpoziumun keçirilməsinə nail olmuşdu. Bu, keçmiş SSRİ məkanında Şərq xalça sənətinə aid birinci simpozium kimi tarixə düşmüşdür. Çoxsaylı xarici qonağın iştirak etdiyi bu simpozium əsl xalça bayramına çevrilmiş, Azərbaycan xalçasının tanıdılmasında və təbliğində mühüm rol oynamışdır.

Xalçaçılıq sənətinin inkişafı sahəsində aparılan iş bu gün uğurla davam etdirilir. Ölkə rəhbərinin mədəniyyətimizin inkişafı ilə bağlı tövsiyə və tapşırıqları milli-mənəvi dəyərlərimizin, xalq sənəti növlərinin mühafizəsi və inkişafı üçün zəmin yaratmışdır. Bu baxımdan “Azərbaycan xalça sənətinin qorunması və inkişaf etdirilməsi haqqında” Azərbaycan Respublikasının Qanununun qəbul olunması xüsusi əhəmiyyət kəsb edir. Bu qanun xalça sənəti ilə bağlı Azərbaycan xalqının zəngin milli-mədəni ənənələrinin qorunub saxlanılması, öyrənilməsi, xalça sənətinin inkişaf etdirilməsi və təbliği sahəsində məsələləri tənzimləyir. Xalqın genetik yaddaşının, tarixi varislik ənənələrinin davamı olan xalçaçılıq sənətinin gələcək nəsillərə ötürülməsi və inkişafına, texnoloji və bədii dəyərlərin inkişafına yönəlmiş məqsədyönlü tədbirlər öz nəticəsini vermiş, 2010-cu ildə xalça sənətimiz YUNESKO-nun qeyri-maddi mədəni irs üzrə reprezentativ irs siyahısına daxil edilmişdir. Azərbaycan xalçasının tanıdılması ilə bağlı 2003-cü ildə Bakıda, 2007-ci ildə isə YUNESKO-nun Parisdəki mənzil qərargahında xalça simpoziumları keçirilmişdir.











Bəşəri sivilizasiyaların uğurlu dialoqu keçmişlə gələcək arasında körpüyə bənzədilir. Bu körpünün təməl daşında, şübhəsiz, Azərbaycan xalça sənətinin də izləri vardır. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin Azərbaycan Xalçası və Xalq Tətbiqi Sənəti Dövlət Muzeyi üçün yeni binanın inşa edilməsi barədə 2007-ci ildə imzaladığı Sərəncam bu sənətə verilən yüksək qiymət və qayğının ifadəsidir. Ölkə Prezidenti demişdir: ***“Xalça bizim milli sənətimizdir. Biz hesab edirik ki, Azərbaycan xalça sənətinin vətənidir, xalça muğam, memarlıq abidələri kimi bizim milli dəyərimizdir, sərvətimizdir”.***

Naxçıvan Muxtar Respublikasının tarixi ərazisindən tapılmış ibtidai gil cəhrələr burada hələ qədimdən toxuculuq sənətinin inkişaf etdiyini göstərir. Tariximiz qədər qədim olan xalçaçılıq və bununla bağlı sənət sahəsi Naxçıvanda Tunc dövründən başlayaraq inkişaf etmiş, daha da zənginləşərək bu günümüzə gəlib çatmışdır. Orta əsr ərəbdilli mənbələrdə Naxçıvanda xalçaçılığın inkişafı və bu ərazidə toxunan xalçaların dünya bazarında satılması haqqında maraqlı məlumatlara rast gəlmək mümkündür. Miladi tarixi ilə 982-ci ildə ərəb dilində yazılmış “Hüdüd-əl-Aləm” (“Dünyanın sərhədləri”) adlı əsərdə Naxçıvanda toxuculuğun inkişafı haqqında qeydlər öz əksini tapmışdır.

Tarixdən qədim Naxçıvan diyarında heyvandarlığın, xüsusilə də qoyunçuluğun inkişafı burada xalçaçılığın yaranmasında mühüm rol oynamışdır. Naxçıvanda xalça toxunmasında tarixən balbas və mazıx qoyun cinslərinin yunu ilə yanaşı, eyni zamanda keçi və dəvə yunundan, ipəkdən də istifadə edilmişdir. Naxçıvan ərazisində xalçaçılığın inkişafı boyaqxanaların da inkişafını zəruri etmişdir. Naxçıvanda müxtəlif bölgələrdə bitən gül-çiçəklərdən, ağac qabıqlarından peşəkar boyaqçılar təbii rənglər almışlar ki, bu da uzun illər rəngini, əlvanlığını, parlaqlığını itirməyən xalça nümunələrinin yaranmasına səbəb olmuşdur.

Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin “Naxçıvan Muxtar Respublikasında Xalq yaradıcılığı günlərinin keçirilməsi haqqında” 2009-cu il 7 fevral tarixli Sərəncamı bu qədim sənətin inkişafı və təbliği sahəsində də yeni imkanlar açmışdır. Naxçıvanda xalça sənətinin inkişafı üçün görülən işlərin miqyası genişdir. Naxçıvan Dövlət Xalça Muzeyi ölkəmizdə müstəqillik illərində yaradılan ilk muzeylərdəndir. 1998-ci ildə yaradılan bu muzey 2010-cu ilin martında – Novruz bayramı ərəfəsində yeni binaya köçürülmüşdür. Yarandığı vaxt 359 eksponatla fəaliyyətə başlayan muzeyin eksponatlarının sayı bu gün 3000-dən artıqdır. 2013-cü ildə muzey yenidən qurulmuşdur. Həmin il “Naxçıvan xalçaçıları” kitabının, “Azərbaycan xalçaları: Naxçıvan qrupu” jurnalının, “Naxçıvan xalçaları” sənədli filminin və muzeyin internet saytının təqdimat mərasimi olmuşdur. Azərbaycan, ingilis və rus dillərində nəşr olunmuş “Naxçıvan xalçaçıları” kitabında 254 toxucu haqqında maraqlı məlumatlar toplanmışdır.

Bu gün Naxçıvan Dövlət Xalça Muzeyində Naxçıvan Dövlət Universitetində və Naxçıvan Müəllimlər İnstitutunda Təsviri incəsənət ixtisası üzrə təhsil alan tələbələrin iştirakı ilə açıq dərslər təşkil olunur. Muxtar respublikanın bölgələrində xalçaçılıq kursları fəaliyyət göstərir. Xalçatoxuyanlar üçün lazımi şərait yaradılır. Həmçinin Naxçıvan Regional Peşə Tədris Mərkəzində xalçaçılıq üzrə peşə kurslarının, Naxçıvan Qızlar Liseyində “Tikiş, toxuculuq və xalçaçılıq” dərnəyinin fəaliyyət göstərməsi, “Naxçıvan Biznes Mərkəzi” Məhdud Məsuliyyətli Cəmiyyətinin xalq yaradıcılığı emalatxanasında xalça toxunmasının təşkili, muxtar respublikanın kəndlərində xalçatoxuyan qadınların hana və digər zəruri ləvazimatlarla təmin olunması xalçaçılığın inkişafına öz töhfəsini verir.

*Xalqımızın istedad və bacarığını, tükənməz sənət imkanlarını göstərən xalçaçılıq əbədiyaşar sənətdir. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbovun dediyi kimi:* ***“Naxçıvan xalçaları, sadəcə xalça deyil, bunlar həm də xalqımızın tarixini, mədəniyyətini, incəsənətini və məişət tərzini özündə yaşadan qiymətli nümunələrdir. Ona görə də bu nümunələrin öyrənilməsi, tədqiqat işlərinin davam etdirilməsi bundan sonra da diqqət mərkəzində saxlanılmalıdır”.***

**Naxçıvan Muxtar Respublikası**
**Mədəniyyət və Turizm Nazirliyinin mətbuat xidməti**

# Ali təhsil ocağının 50 illik yubileyi Şərur rayonunda qeyd olunub

***Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin “Naxçıvan Dövlət Universitetinin 50 illik yubileyinin keçirilməsi haqqında” 14 yanvar 2017-ci il tarixli Sərəncamına uyğun olaraq Şərur şəhərində Naxçıvan Dövlət Universitetinin növbəti yubiley tədbiri keçirilib.***

Tədbiri giriş sözü ilə açan Şərur Rayon Təhsil Şöbəsinin müdiri Zaur Həsənov Naxçıvan Dövlət Universitetinin ali təhsilli kadrların hazırlanmasındakı əhəmiyyətli rolundan danışıb.

Naxçıvan Dövlət Universitetinin Həmkarlar ittifaqı komitəsinin sədri Elşən Məmmədov çıxışında Naxçıvan Dövlət Universitetinin 50 illik tarixi barədə qısa məlumat verib. Qeyd olunub ki, 1967-ci ildən fəaliyyət göstərən bu ali tədris ocağı muxtar respublikada hərtərəfli dünyagörüşə malik, intellektual səviyyəli gənc nəslin yetişməsində müstəsna əhəmiyyət daşıyır. Universitetin belə yüksək səviyyədə fəaliyyətində dövlət qayğısının böyük rolu var. Bu ali təhsil ocağının məzunları ölkəmizin ictimai-siyasi həyatına öz töhfələrini verirlər.

Vurğulanıb ki, universitet dünyanın 80-dən çox ölkəsinin tanınmış ali təhsil ocaqları ilə dostluq və əməkdaşlıq əlaqələri qurub. Hazırda Naxçıvan Dövlət Universitetində 12 dövlətdən 300-ə yaxın tələbə təhsil alır.

Universitetin Pedaqogika və psixologiya kafedrasının müdiri Vahid Rzayev çıxış edərək vurğulayıb ki, Naxçıvan Dövlət Universiteti yerli kadrların hazırlanmasında mühüm rol oynayan bir ali təhsil müəssisəsidir. Burada yalnız pedaqoji kadrlar deyil, gələcəyin həkim, mühəndis, jurnalist və digər mütəxəssisləri də yetişir. Təbiətşünaslıq və kənd təsərrüfatı fakültəsinin dekanı Şəmil Mahmudov tədbirdə çıxış edərək bildirib ki, rəhbərlik etdiyi fakültədə laboratoriyalar ən son avadanlıqlarla təchiz olunub, tələbə və müəllimlərin rahat təcrübə aparmaları üçün lazımi şərait yaradılıb.

Fizika-riyaziyyat fakültəsinin dekanı Orxan Cəfərov çıxışında fakültənin muxtar respublikanın orta məktəbləri ilə mütəmadi olaraq əlaqə saxlamasından, fakültənin müəllimləri tərəfindən ayda bir dəfə orta məktəblərdə nümunəvi dərslər keçilməsindən danışıb.

Magistratura fakültəsinin dekanı Etibar Məmmədov bildirib ki, bu gün yalnız Naxçıvan Dövlət Universitetinin məzunları deyil, digər universitetlərin məzunları da magistr təhsili üçün bu ali təhsil ocağını seçirlər. Belə ki, Magistratura fakültəsinə 2016-cı ildə 136 bakalavr qəbul olub ki, onlardan da 39-u Azərbaycanın müxtəlif universitetlərinin məzunlarıdır.

Universitet Elmi Şurasının elmi katibi Elçin Zamanlı qeyd edib ki, universitet Elmi Şurasının fəaliyyəti tədris və elmi işlərlə əlaqəlidir. Naxçıvan Dövlət Universiteti yüksək elmi potensiala malikdir.

Sonda “Naxçıvan Dövlət Universitetinin inkişaf yolu” adlı film nümayiş olunub.

**Fatma BABAYEVA**

## “Heydər Əliyev kuboku” uğrunda yeniyetmələr arasında sərbəst güləş üzrə muxtar respublika birinciliyinə yekun vurulub



Mayın 4-də ümummilli lider Heydər Əliyevin anadan olmasının 94-cü ildönümünə həsr olunan sərbəst güləş üzrə muxtar respublika birinciliyinə yekun vurulub.

Birinciliyin son günü maraqlı final qarşılaşmaları ilə yadda qalıb. Sərbəst güləşçilərin mübarizəsində 42 kiloqram çəki dərəcəsində Hüseyn Əhmədli, 46 kiloqram çəki dərəcəsində Seymur Qasımov, 50 kiloqram çəki dərəcəsində Sultan Quliyev, 54 kiloqram çəki dərəcəsində Muxtar İbrahimov, 58 kiloqram çəki dərəcəsində Tağı Tağızadə, 63 kiloqram çəki dərəcəsində Abbas Həsənov, 69 kiloqram çəki dərəcəsində Altay Zeynalov, 76 kiloqram çəki dərəcəsində Azər Əliyev, 85 kiloqram çəki dərəcəsində Talıb Yüzbaşıyev və 100 kiloqram çəki dərəcəsində Novruz Ağazadə bütün rəqiblərini üstələyərək birinci yerlərə layiq görülüblər.

Sonda qaliblərə mükafatlar təqdim olunub.

**“Şərq qapısı”**

## *“Pedaqogika”* kitabının təqdimatı olub

***“Naxçıvan” Universitetinin kitabxanasında pedaqoji elmlər doktoru, professor İsmayıl Əliyevin “Pedaqogika” kitabının təqdimatı olub.***

Tədbiri giriş sözü ilə universitetin tərbiyə işləri üzrə prorektoru Əli Yusifov açaraq müəllifi təbrik edib, yeni işıq üzü görən dərs vəsaitinin məziyyətləri barədə ətraflı məlumat verib. Bildirilib ki, ali məktəb tələbələri, doktorant və müəllimləri üçün nəzərdə tutulmuş bu dərs vəsaiti ümumi pedaqogika üzrə nəzəri biliklər və müasir təcrübənin ən yeni nailiyyətləri əsasında tərtib olunub. Kitab sistematik olaraq “Pedaqogikanın ümumi əsasları”, “Didaktika”, “Tərbiyə nəzəriyyəsi” və “Məktəbşünaslıq” bölmələrindən ibarətdir. Pedaqogikanın nəzəri problemlərini və praktik pedaqoji nailiyyətləri əhatə edən dərs vəsaitində mühazirələr pedaqogika elminin klassik bölmələrinin ardıcıllığı ilə tərtib edilmişdir. Kitabda öyrəniləcək materialların əsas mahiyyətinin sadə, elmi dəqiqliklə verilməsi tələbələrin pedaqoji bilikləri dərindən mənimsəməsinə kömək göstərəcək.

Sonra Pedaqogika və psixologiya kafedrasının müəllimi, pedaqoji elmlər doktoru Vahid Rzayevin, Naxçıvan Dövlət Universitetinin professoru, fəlsəfə elmləri doktoru, Azərbaycan Respublikasının Əməkdar müəllimi Məmməd Rzayevin, “Naxçıvan” Universiteti kitabxanasının müdiri, dosent Aypara Behbudovanın, İdarətmə fakültəsinin dekanı, tarix üzrə fəlsəfə doktoru Elbrus İsayevin, Pedaqogika nəzəriyyəsi və tarixi ixtisası üzrə magistr Lalə Qarayevanın kitabla bağlı fikirləri dinlənilib.

Sonda rektor, professor İsmayıl Əliyev tədbir iştirakçılarına və kitabın ərsəyə gəlməsində köməkliyi olan hər kəsə minnətdarlığını bildirib.

**Nuray ƏSGƏROVA**

## Naxçıvan Muxtar Respublikası Auksion Mərkəzi tərəfindən 12 may 2017-ci il tarixdə açıq hərraca çıxarılacaq əmlak haqqında məlumat

| Sıra №-si | Hərraca çıxarılacaq əmlak | Əmlakın hüquqi ünvanı | Əmlakın ilkin satış qiyməti (manat) | İlkin satış qiymətinin 5% həcmində hesablanmış behin məbləği (manat) |
|---|---|---|---|---|
| 1. | “Kia Cerato” “Sedan” tipli ağ mirvari rəngli avtomobil | Naxçıvan Muxtar Respublikası Auksion Mərkəzi | 17 500 | 875 |

Hərracda qanunvericiliyə müvafiq olaraq alıcı hesab edilən, sifarişi və digər zəruri sənədləri təqdim etmiş hüquqi və fiziki şəxslər iştirak edə bilərlər. Hərraca çıxarılan əmlakın ilkin satış qiymətinin 5 faizi məbləğində beh Naxçıvan Muxtar Respublikası Auksion Mərkəzinin müəyyən etdiyi hesablaşma hesabına 8 may 2017-ci il tarixədək ödənilməlidir.

Hərraclarda iştiraka görə hərrac iştirakçılarından qanunvericilikdə müəyyən edilmiş iştirak haqqı Mərkəzi Bankın Naxçıvan Muxtar Respublikası İdarəsindəki AZ21NABZ12360100000000005944 nömrəli hesabına köçürülür.

Sifarişlər Naxçıvan Muxtar Respublikası Auksion Mərkəzində (Atatürk 42) qəbul olunacaqdır. Məlumat dərc olunduğu vaxtdan auksionda iştirak etmək arzusunda olan hüquqi və fiziki şəxslər satışa çıxarılan nəqliyyat vasitəsinin sənədləri ilə Naxçıvan Muxtar Respublikası Auksion Mərkəzində tanış ola bilərlər.

Auksionda iştirak etmək üçün aşağıdakı sənədlər təqdim olunur:

- *Naxçıvan Muxtar Respublikası Auksion Mərkəzi tərəfindən təsdiq edilmiş formada sifariş;*
- *ödəniləcək behin qəbzi;*
- *hüquqi şəxslər üçün müəyyən olunmuş qaydada təsdiq edilmiş sənədin surəti;*
- *fiziki şəxslər üçün şəxsiyyəti təsdiq edən sənədin surəti.*

Hərrac 12 may 2017-ci il tarixdə, saat 11[00]-da Naxçıvan Muxtar Respublikası Auksion Mərkəzində keçiriləcək.

***Əlavə məlumatı Auksion Mərkəzindən ala bilərsiniz.***
***Əlaqə telefonu: 545-01-38***

## Naxçıvanlı zəka sahibləri “C” qrupunda liderliyə yüksəliblər

***Naxçıvan şəhərindəki Şahmat Mərkəzində ümummilli lider Heydər Əliyevin anadan olmasının 94-cü ildönümünə həsr olunmuş “Naxçıvan-2017” Beynəlxalq Şahmat Festivalında ikinci turun oyunları keçirilib.***

“A” qrupunda ilk görüşünü qələbə ilə başa vuran rusiyalı qrossmeyster Sergey Volkov (2617) bu turda xal itirib. O, azərbaycanlı beynəlxalq usta Vüqar Əsədli (2439) ilə xalları yarı bölüb. FİDE ustası Əhməd Əhmədzadə (2357) ilk turdakı uğurunu təkrarlaya bilməyib. Buna azərbaycanlı qrossmeyster Nicat Abbasov (2575) imkan verməyib. Bu, Nicat Abbasovun turnirdə ardıcıl ikinci qələbəsidir. Rusiyalı qrossmeyster Vladimir Burmakin (2508) ikinci görüşünü də qələbə ilə başa vurub. O, ilk turda qələbə qazanan idman ustası Səbinə İbrahimovadan (2198) üstün olub. Eyni uğuru azərbaycanlı zəka sahibi Ülvi Sadıqov (2467) da qazanıb. İdman ustası ilk turu boş keçirən naxçıvanlı, 14 yaşlı şahmatçı Sadiq Məmmədovla (2091) üz-üzə gəlib və qələbə qazanıb.

Naxçıvanlı şahmatçılardan söz düşmüşkən, ikinci tur zəka sahiblərimiz üçün elə də uğurlu alınmayıb. Belə ki, qrossmeyster Toğrul Həsənzadə (2347) qrossmeyster, turnirin ən reytinqli şahmatçısı Eltac Səfərli (2668) ilə görüşdə məğlub olub. Belçika təmsilçisi Vadim Malaxatko (2487) ilə qarşılaşan FİDE ustası Pərviz Qasımov (2318) da eyni aqibətlə üzləşib. Naxçıvanlı qrossmeyster Urfan Sevdimalıyev (2366) isə qrossmeyster Zeynəb Məmmədyarova ilə (2321) xalları yarı bölüb.

İlk iki turdan sonra “A” qrupuna 5 zəka sahibi maksimum xalla başçılıq edir.

Ölkənin müxtəlif regionlarından 92 zəka sahibinin mübarizə apardığı “B” qrupunda liderlər məlum olmağa başlayıb. 21 şahmatçı hər iki turda qələbə qazanıb və liderliyə yüksəliblər.



Onlar arasında Naxçıvan şahmat məktəbinin yetirmələri Azər Bayramov və Orxan Həsənov da var.

*“Naxçıvan-2017” Beynəlxalq Şahmat Festivalının “C” qrupunun liderləri naxçıvanlı zəka sahibləridir. 12 yaşlı Həsən Həşimli (Culfa) və 10 yaşlı Abdulla Hüseynli ilk iki pillədə qərarlaşıblar. Ümumiyyətlə, bu qrupda 34 şahmatçının iki xalı var.*

**✍ Ceyhun MƏMMƏDOV**

## Sərnişin daşınması ilə məşğul olan sürücülər üçün seminar-müşavirə keçirilib

***Naxçıvan Şəhər Təsərrüfathesablı Nəqliyyat İdarəsində şəhər ərazisində əhaliyə sərnişindaşıma xidməti göstərən sürücülərin iştirakı ilə seminar-müşavirə keçirilib.***

Tədbirin təşkilində məqsəd avtomobil nəqliyyatı sahəsində xidmətin intensivliyinin təmin olunmasından, yaranmış çətinliklərin, yol verilən nöqsanların aradan qaldırılması yollarının müəyyən edilməsindən ibarət olub.

Seminar-müşavirədə Naxçıvan Muxtar Respublikası Nəqliyyat Nazirliyinin şöbə müdirləri Yasin Əliyevin, Elxan Novruzovun, Naxçıvan Şəhər Təsərrüfathesablı Nəqliyyat İdarəsinin rəis əvəzi İlkin Məmmədovun çıxışları olub.

Çıxışlarda qeyd edilib ki, muxtar respublikada digər sahələrə yanaşı, avtomobil nəqliyyatı sahəsində də əsaslı islahatlar aparılıb və müsbət nəticələr əldə edilib. Bu sahəyə göstərilən diqqət və qayğının nəticəsidir ki, ən ucqar dağ kəndlərinə belə, rahat asfalt yollar salınır, rayon mərkəzlərində yeni avtovağzallar tikilib istifadəyə verilir. Yol-nəqliyyat infrastrukturunun yenilənməsi, bu sahədə həyata keçirilən müxtəlif tədbirlər avtomobil nəqliyyatı ilə sərnişin və yük daşınmalarının müasir tələblərə uyğun yerinə yetirilməsinə əlverişli şərait yaradıb.



Bildirilib ki, bu gün sərnişinlərin mənzil-başına vaxtında və təhlükəsiz çatdırılmasına xüsusi diqqət yetirilir. Avtomobil nəqliyyatı ilə sərnişin daşınmasını yerinə yetirən sürücülərin intizam qaydalarına əməl etmələrini yoxlamaq məqsədilə reydlər keçirilir, qanun pozuntusuna yol verən sürücülər aşkar edilir.

Vurğulanıb ki, sərnişin və yük daşınmaları ilə məşğul olan sürücülərin başlıca vəzifələrindən biri də avtomobillərini vaxtında texniki müayinədən keçirmələridir. Bu məqsədlə müntəzəm reydlər keçirilir, avtonəqliyyat vasitələrində aşkar olunan nöqsan və çatışmazlıqlar aradan qaldırılır.

Diqqətə çatdırılıb ki, nəqliyyat vasitəsi yola düşməzdən əvvəl sürücü tərəfindən onun texniki cəhətdən sazlığı yoxlanılmalı, yol hərəkətinin və daşımaların təhlükəsizliyi qaydalarına əməl edilməlidir. Nəqliyyat vasitəsi müəyyən edilmiş sürət həddini keçməməli, marşrut qrafikinə əməl olunmalıdır.

Sonra seminar-müşavirə iştirakçılarının sualları cavablandırılıb.

**✍ Səbuhi HÜSEYNOV**

## Psixotrop tərkibli dərmanların qanunsuz dövriyyəsinə, qaçaqmalçılığa qarşı mübarizə tədbirləri davam etdirilir

***Muxtar respublika gömrük orqanları tərəfindən narkotik vasitələrin, psixotrop tərkibli dərmanların qanunsuz dövriyyəsinə, qaçaqmalçılıq və gömrük sahəsində digər hüquqpozma hallarına qarşı mübarizə tədbirləri davam etdirilir. Hazırda bununla bağlı iki fakt qeydə alınıb.***

Belə ki, Azərbaycan Respublikasında müvəqqəti yaşamaq üçün icazə vəsiqəsi olan Türkiyə Respublikası vətəndaşı İran İslam Respublikasına gedərək oradan özünə məlum olan mənbədən əldə etdiyi 119 ədəd “Tramadol” adlı güclü təsir edən maddəni gizlətməklə Naxçıvan Muxtar Respublikası ərazisinə gətirmək istəyib. Culfa Gömrük İdarəsinin əməkdaşlarına əvvəlcədən daxil olmuş məlumat əsasında saxlanılan şəxs öz ifadəsində istifadə zamanı keyləşdirici təsir göstərən bu dərmanlara qarşı onda aludəçilik yarandığını deyib.

Faktla bağlı Naxçıvan Muxtar Respublikası Dövlət Gömrük Komitəsinin İstintaq şöbəsi tərəfindən Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 206.2-ci maddəsi ilə cinayət işi başlanılıb. Qeyd edək ki, qanunvericilikdə güclü təsirə malik maddələrin gömrük nəzarətindən kənar və ya gizli keçirilməsinə görə üç ildən yeddi ilədək müddətə azadlıqdan məhrumetmə cəzası nəzərdə tutulub.

Gömrük sahəsində hüquqpozmalara qarşı mübarizə çərçivəsində digər bir fakt isə İran İslam Respublikası ərazisindən keçməklə Naxçıvan Muxtar Respublikasına gələn nəqliyyat vasitəsinə rentgen-nəzarət qurğusuyla həyata keçirilən gömrük baxışı zamanı qeydə alınıb. Belə ki, Azərbaycan Respublikası vətəndaşı olan Naxçıvan şəhər sakininin idarə etdiyi nəqliyyat vasitəsinin arxa sol divarında üzlüyün altında gizlədilərək gömrük nəzarətinə bəyan edilməyən 5 min ədəd siqaret aşkarlanaraq götürülüb.

Faktla bağlı Azərbaycan Respublikası İnzibati Xətalar Məcəlləsinin 480-ci maddəsi ilə inzibati icraat başlanılıb. Qeyd edək ki, malların gömrük nəzarətindən az miqdarda (dörd min manatadək olan məbləğdə) gizlədilməklə keçirilməsinə görə inzibati xətanın bilavasitə obyekti olan malların müsadirə edilməsi, yaxud həmin malların dəyərinin altmış faizindən yüz faizinədək məbləğdə cərimələnməsi nəzərdə tutulub.

***Naxçıvan Muxtar Respublikası Dövlət Gömrük Komitəsinin mətbuat xidməti***

ŞƏRQ qapısı
Baş redaktor: MEHRİBAN SULTANOVA
Ünvan: AZ-7000, Naxçıvan şəhəri, “Təbriz” küçəsi 1.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az
Qeydiyyat №: 575
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır
Nömrəyə məsul: Əli Cabbarov
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.
Tiraj: 1000. Sifariş № 368